**Respublika.** - 2024.- 1 dekabr. - № 265. - S. 1,8.

# İqlim dəyişmələri kontekstində insan hüquqlarının müdafiəsi dövlətimiz üçün prioritetdir

**Bayram Salmanov**

**İqlim dəyişmələrinin təsiri son dövrlərdə daha çox hiss olunur. Hava şəraitinin kəskin dəyişməsi nəticəsində güclü təbii fəlakətlər (qasırğalar, daşqınlar, yanğınlar, quraqlıqlar) tez-tez baş verir. İqlim dəyişmələrinin fəsadları Azərbaycanda da müşahidə edilir, insanların həyatına ciddi təsir edir. Bu aspektdə Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri ilə mübarizə sahəsindəki əsas çərçivə sənədi olan Paris Sazişi (2015) mühüm əhəmiyyətə malikdir.**

COP29 çərçivəsində Qətər Dövlətinin Milli İnsan Hüquqları Komitəsi tərəfindən təşkil olunmuş iqlim dəyişmələri və insan hüquqlarına dair panel müzakirəsi keçirildi. İqlim dəyişmələri kontekstində insan hüquqlarının müdafiəsi Azərbaycan üçün prioritetdir. Ümumiyyətlə, hər il milyonlarla insan iqlim dəyişmələri nəticəsində temperaturun artması, su resurslarının və məhsuldarlığın azalması, quraqlıq kimi problemlərlə üzləşir. İqlim dəyişmələrinin təsirləri ilə mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlıq, təmiz enerjidən istifadə, karbon tullantılarının azaldılması və davamlı kənd təsərrüfatı təcrübələrinin inkişafı mühüm əhəmiyyət kəsb edir.

İqlim dəyişmələri birbaşa təbii resursların, suyun, torpağın, havanın keyfiyyətinin dəyişməsi ilə əlaqədardır və bu dəyişmələr insanların həyatını təhdid edir. Bu məsələdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, İqtisadi, Sosial və Mədəni Hüquqların Beynəlxalq Paktlarını nəzərə almaq lazımdır. Hər iki sənəd insanların müəyyən fundamental hüquqlara sahib olduqlarını təsdiq edir. İqlim dəyişmələri bu hüquqların pozulmasına səbəb olan faktordur. Həmçinin ətraf mühitin qorunması da insan hüquqlarının təmin olunması üçün vacibdir. İqlim dəyişmələrinin insan hüquqlarına təsirlərini aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

Yaşamaq hüququ: Bu, insanların həyatını qorumaq üçün əsas şərtdir, lakin iqlim dəyişmələri bu hüququ təhdid edir. Belə ki, təbii fəlakətlər - sel, quraqlıq, fırtınalar insanların həyatına ciddi təhlükə yaradır. Dəniz səviyyəsinin yüksəlməsi xüsusilə sahil bölgələrində yaşayan əhalinin həyatını, evini itirmək riskləri yaradır. Dəyişən hava şəraiti ilə bağlı yeni xəstəliklər və mikroorqanizmlər də insan sağlamlığını təhdid edir. Məsələn, yoluxucu xəstəliklər və havanın istiləşməsi qlobal sağlamlıq böhranlarına səbəb ola bilər.

Sağlamlıq hüququ: İqlim dəyişmələri bir çox xəstəliklərin yayılmasına şərait yaradır. İstiliyinin artması, suyun və ərzaqların çirklənməsi insan sağlamlığına birbaşa təsir edir. Quru və quraqlıq əkinçilik üçün vacib olan su resurslarının azalmasına, qida məhsullarının çatışmazlığına və bununla da malyariya, vərəm, dizenteriya kimi yoluxucu xəstəliklərin yayılmasına gətirib çıxara bilər. İqlim dəyişmələri ilə əlaqədar artan istilər xüsusilə yaşlılar, uşaqlar və xəstə insanlar üçün həyati təhlükədir. Artan hava çirkliliyi (əsasən də şəhər ərazilərində) ürək-damar və nəfəs yolları xəstəlikləri yaradır.

Qida və su təhlükəsizliyi: Qida və su hər bir insanın əsas ehtiyaclarındandır. Lakin iqlim dəyişmələri əkin sahələrinin azalması və su ehtiyatlarının tükənməsi ilə nəticələnir, bu da qida və su təminatını təhdid edir. Quraqlıq, dolu və fırtınalar əkinçilik sahələrini məhv edir, balıqçılıq sənayesi isə suyun çirklənməsi və dənizlərin istiləşməsi ilə məhv olur. Bu da insanların qida təminatını məhdudlaşdırır və sosial ədalətsizliyi artırır. Dəniz səviyyəsinin yüksəlməsi, fəlakətli sel və zəlzələlər nəticəsində milyonlarla insan yaşayış yerini tərk etmək məcburiyyətində qalır. Bu da ev sahibi olmaq və yaşamaq hüququnu pozur. İnsanlar üçün yeni evlər, uyğun təhsil, səhiyyə və sosial xidmətlərə çıxış təmin etmək çətinləşir.

İqlim dəyişmələri iqtisadiyyata ciddi təsir göstərir. İş yerlərinin itirilməsi, xüsusilə iqlimə həssas sahələrdə (kənd təsərrüfatı, balıqçılıq, turizm), insanların həyatını çətinləşdirir. Qlobal səviyyədə zəngin ölkələr iqtisadi inkişafı sürətləndirərkən inkişaf etməkdə olan ölkələrdə yaşayan insanlar iqlim dəyişmələrinin mənfi təsirlərinə məruz qalırlar. Bu da sosial ədalət və bərabərlik prinsiplərinin pozulmasıdır. Qadınlar, uşaqlar, yaşlılar, müharibə və münaqişə zonalarından gələn miqrantlar, kəndli və balıqçı icmaları iqlim dəyişmələrinin təsirlərinə qarşı xüsusilə həssasdırlar.

Qadınlar kənd yerlərində iqlim dəyişmələrinin təsirlərini kişilərdən daha çox hiss edirlər, iqlim dəyişmələrinin nəticələri onların həyat şəraitini ağırlaşdırır. Yaşlılar və uşaqlar daha çox xəstələnir və ölüm riski ilə qarşılaşırlar. Onlar dəyişən hava şəraiti və təbii fəlakətlərdən ən çox zərər çəkən qruplardır. İqlim ədaləti iqlim dəyişmələrinin səbəb olduğu sosial ədalətsizliyi azaltmaq məqsədi daşıyır. Bu, zəngin

ölkələrin və böyük sənayelərin iqlim dəyişmələri ilə bağlı daha çox məsuliyyət daşıdıqlarını qəbul etməyi və zəif ölkələrə bu fəsadların təsirlərini azaltmaq üçün yardım göstərməyi tələb edir.

Dünyada iqlim dəyişmələrinin təsirlərinin azaldılması, hüquqların qorunması və sosial bərabərliyin təmin edilməsi üçün beynəlxalq və milli səviyyədə hüquqi, sosial tədbirlər vacibdir.

Ermənistanın 30 illik işğalı nəticəsində torpaqlarımızın ekoloji vəziyyətinə ciddi ziyan dəyib. İşğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı ekoloji problemlərə gətirib çıxarıb. Barbar ermənilər ərazilərimizdə meşələri vəhşicəsinə qırıb, yandırıb, su ehtiyatlarını çirkləndirib, flora, faunanı məhv edib və yerin təkini talan ediblər. Bu da ekoloj tarazlığı pozub. Azərbaycanın əvvəllər işğal olunmuş bütün ərazilərində 260 min hektara yaxın meşə ərazisi var idi, lakin son 30 il ərzində meşə örtüyü sürətlə azalıb. Ermənistanın mebel sənayesi və bu sahədə ixrac göstəriciləri artıb, bu isə qiymətli ağac növlərinin bitdiyi Qarabağın meşə resurslarından istifadə ilə bağlıdır.

Ermənilər Azərbaycan rayonlarının ərazisində işğal dövrü ərzində mütəmadi olaraq yanğınlar törədirdilər ki, yandırılmış ərazilər insanlara, iqtisadiyyata və ətraf mühitə mənfi təsir etmişdir. Bu da vətəndaşlarımızın hüquqlarının kobud şəkildə pozulması deməkdir. Azərbaycanın transsərhəd çayı olan Oxçuçayın Ermənistan tərəfindən çirkləndirilməsi ölkəmizə qarşı aparılan ekoloji Vətən müharibəsi zamanı da davam edirdi. Erməni silahlı qüvvələri tərəfindən ağ fosforlu mərmilərdən istifadə tətbiq edilirdi. Bu maddə zəhərləmək və təhlükəli yanıq izləri qoymaqla yanaşı, həm də söndürülməsi çətin olan yanğınlara səbəb olurdu. Ermənilər müxtəlif mənşəli tullantılarla su mənbələrimizi də çirkləndiriblər. Torpaqlarımız azad edilənə qədər şirin su ehtiyatlarımızın böyük hissəsi və kənd təsərrüfatında yararlı olan sudan əhali, demək olar ki, istifadə edə bilməyib. Buna nümunə olaraq Sərsəng su anbarını göstərmək olar. Anbar uzun müddət texniki xidmətin göstərilməməsi səbəbindən qəza vəziyyətində idi. Bu da regionun dağətəyi və Mərkəzi Aran ərazilərində yaşayan 400 min sakin üçün təhlükə yaradırdı. Dövlətimiz bu su anbarının daimi təhlükə, humanitar, ekoloji və texnogen fəlakət mənbəyinə çevrildiyini dəfələrlə bəyan edib. Yalnız torpaqlarımız işğaldan azad edildikdən sonra bu təhlükə aradan qalxıb.

Bakıda keçirilən COP29 konfransı dövlətimizin iqlim siyasətinin və qlobal səylərinin təqdim edilməsi baxımından çox mühüm tədbir oldu. Sammitdə Prezident İlham Əliyev iqlim dəyişmələrinin qlobal miqyasda artan təhdidlərinə qarşı beynəlxalq əməkdaşlığı daha da gücləndirmək üçün çağırışlar etdi. Konfransda dövlətimizin daha bir çağırışı iqlim dəyişmələri ilə mübarizənin yalnız dövlətlərarası deyil, həm də hər bir fərdin məsuliyyətli olması ilə bağlıdır. Bu, birgə fəaliyyət, həmrəylik və qlobal bərabərlik tələb edən çağırışdır. İqlim dəyişmələri ilə mübarizə yalnız iqlim və ekologiya deyil, həm də sosial ədalət və insan hüquqları məsələsidir. COP29-da "Yaşıl dünya naminə həmrəy olaq" mesajı da iqlim dəyişmələri ilə mübarizənin hər kəsin birgə səyi ilə həll olunmasının vacibliyini vurğulayır. Dövlətimizin reallaşdırdığı tədbirlər "yaşıl enerji" keçidini sürətləndirmək, təbii sərvətləri qorumaq, vətəndaşların ekoloji cəhətdən daha dayanıqlı və bərabər həyat şəraiti yaratmaq məqsədinə xidmət edir. Bu təşəbbüslər yalnız ekoloji deyil, həm də sosial və iqtisadi dayanıqlılığa yönəlib. COP29-da bu məsələlərin vurğulanması və dünya ictimaiyyətinin diqqətinin buraya yönəldilməsi ölkəmizin bu sahədəki liderlik mövqeyini bir daha təsdiqlədi.

Ümumilikdə, COP29-da əldə edilən razılaşmalar iqlim dəyişmələrinin və insan hüquqlarının qorunması sahəsində daha ambisiyalı və şəffaf tədbirlərin həyata keçirilməsini tələb edir. Dövlətimizin iqlim siyasəti, COP29-da nümayiş etdirilən təşəbbüslər və beynəlxalq səylər ölkənin ekoloji sosial ədalət və insan hüquqları sahəsindəki liderliyini möhkəmləndirir.